**“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununu “Reklamhaqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ
nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007, № 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6; 2014, № 11, maddə 1374; 2015, № 11, maddə 1273; 2016, № 6, maddə 992) aşağıdakı məzmunda 5.4-cü maddə əlavə edilsin:

“5.4. Narkotik vasitələrin və psixotrop maddələrin reklamına yolverilmir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 29 noyabr 2016-cı il**

**Azərbaycan.- 2017.- 29 yanvar.- S.2.**